# Tanış olun, həmyerlimizdir

***Vaxtilə «Qalibiyyət», sonralar «Qəbələ» adı ilə dərc olunan rayon qəzetindən öz yazıları ilə həyata vəsiqə alan həmyerlilərimiz çoxdur. Onların bir çoxu respublikamızın müxtəlif şəhər və rayonlarında, paytaxt Bakı şəhərində müxtəlif vəzifələrdə çalışırlar. İki nəfəri isə hazırda «Azərbaycan» qəzeti redaksiyasında işləyir. Rüstəm Rüstəmov əvvəllər bu qəzetin redaksiyasında müxtəlif vəzifələrdə fəaliyyət göstərmiş, hazırda redaktor müavini vəzifəsində işləyir.***

***«Azərbaycan» qəzetinin səhifələrində tez-tez imzalarına rast gəldiyimiz Rüstəm Kamal isə qəzetin müxbiridir.***

***«Azərbaycan» qəzetinin 5 iyul tarixli sayında öz müxbiri haqqında dərc etdiyi yazını «Qəbələ»nin oxucularına təqdim edirik.***

Jurnalist ömrünün qazancı

Bu gün Rüstəm Mütəllibovun 60 yaşı tamam olur. “Azərbaycan” qəzetinin oxucuları onu Rüstəm Kamal imzası ilə tanıyırlar. Bu təxəllüsü dünyasını cavan yaşında dəyişmiş atası Kamalın xatirəsinə ehtiram olaraq götürüb.

Rüstəm Mütəllibovun imzasını ilk dəfə 46 il əvvəl Qəbələ rayonunda çıxan “Qalibiyyət” (indi “Qəbələ”) qəzetinin oxucuları tanıyıblar. Dızaxlı kənd orta məktəbinin yeddinci sinif şagirdinin qəzetə göndərdiyi yazı bəyənilib dərc edildəndən sonra daha da ruhlanıb. Əslində, balaca müxbiri qanadlandıran səbəb təkcə bu deyldi. Sinif yoldaşları, məhəllədəki tay-tuşları onu dəstəkləyir, yazmağa həvəsləndirirdilər. Çünki rayon qəzetindən göndərilən hər qonorardan sonra Rüstəm onları kənd klubunda göstərilən maraqlı filmlərə baxmağa aparır, kənd dükanında satılan yağlı peçenyelərə qonaq edirdi...

Zarafat öz yerində, amma Rüstəmin jurnalistikaya həvəsi böyük idi. Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) Jurnalistika fakültəsinə imtahan verib müsabiqədən keçməyəndə belə, ruhdan düşmədi. Dərk etdi ki, mükəmməl hazırlaşmalıdır. Ordu sıralarında əsgəri borcunu yerinə yetirdi, qayıdandan sonra istehsalatda çalışdı və növbəti dəfə biliyini sınamağa qərar verdi. Özünün fikrincə, bu dəfə də biliyini düzgün qiymətləndirmədilər. Amma yenə ruhdan düşmədi.

Qələm dostumuzun xarakterində emosionallıqla yanaşı, möhkəmlik, yaxşı mənada inadkarlıq, dözümlülük var. Nə isə... Atalar “üç”dən deyib. Və üçüncü dəfədə - 1983-cü ildə Rüstəm universitetə daxil oldu. “Azərelektroişıq” İstehsalat Birliyində bilavasitə istehsalatda çalışaraq təhsilini qiyabi davam etdirdi. Çox keçmədən gələcək jurnalist müəssisənin fəhlə yataqxanasında tərbiyəçi-müəllim, sonra isə “Şüa” çoxtirajlı qəzetində müxbir işləməyə başladı. İki il sonra - 1987-ci ildə isə Keşlə Maşınqayırma Zavodunun “Fəhlə şərəfi” qəzetinin redaktoru təyin olundu.

O zaman bu təyinat rayon partiya komitəsində narazılıqla qarşılandı. Çünki həmin vaxta qədər universitetdə təhsilini başa çatdırmayan tələbənin çoxtirajlı qəzetə redaktor təyin edilməsi faktına rast gəlinməmişdi. Amma müəssisə öz seçimində israrlı idi…

Həmkarımız deyir ki, əvvəlcədən qəlbində ölkənin mərkəzi mətbuatında işləmək arzusu olub. Zəhmətsevərliyi, öz üzərində çalışması, məqsədinə doğru inamla irəliləməsi onu bu arzusuna da qovuşdurdu. 1991-ci il yanvarın 1-dən “Həyat”ın, daha sonra isə “Azərbaycan”ın müxbiri oldu.

Bu gün qəzetimizin oxucuları Rüstəm Kamalın iqtisadi mövzuda yazdığı məqalələrə, icmal və şərhlərə tez-tez rast gəlirlər. İqtisadiyyatdan yazan jurnalistlər daim oxumalı, öyrənməli, ölkənin həyatında və dünyada baş verən iqtisadi hadisələri izləməli və onları şərh etməyi bacarmalıdırlar. Beləcə, onlar az qala həm də iqtisadçıya çevrilirlər. Bizim Rüstəm kimi...

Jurnalistikanın “əlifba”sını əvvəlindən mənimsəyən - çoxtirajlıda püxtələşən, sonra ölkənin rəsmi dövlət qəzetində özünü təsdiqləyən həmkarımızın zəngin həyat müşahidələri var. Yəqin ki, bədii təxəyyülündən istifadə edərək nə vaxtsa bunları da qələmə alacaq.

“Həyatda çətinliyim çox olsa da, özümü xoşbəxt insanlardan sayıram”, - deyir Rüstəm Kamal - “Qayğıkeş valideynlərim olub, milli-mənəvi dəyərlərə söykənən ailəm var. İki qız övladım dünya boyda sevincimdir. Hər addımımda, hər hərəkətimdə çalışmışam ki, mənə ata-babamdan ərməğan qalan təmiz adı qoruyum və sonra da övladlarım, nəvələrim bundan qürur duysunlar”.

Həmkarımızın bir xoşbəxtliyi də babasının adından ad almış balaca Rüstəmdir. Baba-Rüstəm yubileyinin bir yaşı tamam olan nəvəsinin ad günü ilə üst-üstə düşməsini böyük bir töhfə sayır.

Hər ikisini təbrik edirik!

**“Azərbaycan”.**

# Müdrik sözlər toplusu xəzinəsindən

✦Etibar, vicdan və səbr hər bir kəsin həyatını, hətta şərəfli ölümünün belə müdafiəçisidir.

✦Məhəbbət pul deyil, kimsə onu dilənə.

✦Hörmətsizliyi saxla, olmaması üçün. Adamlığını və hörmətini isə saxlama, hamı ilə paylaşmaq üçün.

✦Etibar və məhəbbət kimsənin xəbəri olmadan qeyibdən göndərilən simurq quşudur, hər başa qonmur, hər könüldə yuva bağlamır.

✦Adamlar harada hörmətli görünürlər? Uşaqların gözündə, böyükələrin sözündə.

✦Etibarsızlar özləri özlərində itmişlərdir.

✦Kiminsə başında hikmətli sözlə dolu xəzinəsi var, Kiminsə başında biçimsiz sözlə dolu zirzəmisi var.

✦Suyun dadını bilmək üçün hamısını içməyə ehtiyac yoxdur.

✦Duzda kəsər olar, sözdə hikmət.

✦Musiqidə ahəng olar, səbrdə həyat.

✦Vəfasızlar və etibarsızlar, həyat okeanında cəhətlərini itirmiş səfillərdir.

✦Bir damla olsan da okean damlası ol, çirkab gölməçə damlası olma.

✦Qeyrətlilər iş görmək üçün vaxt axtararlar, tənbəllər isə bəhanə.

✦Kimini əqli ilə səbri idarə edir, kimini isə fikri ilə nəfsi idarə edir.

✦Adamın şüuru iş əsnasında çəki vahidi, səbri isə ölçü vahididir.

✦Yad adamlar, doğma olub bacarmayanlardan etibarlıdır.

✦Şəffaf əqldən bəhrələnən şüur saglam olar.

✦Yüyən ol, ağızda gəz, quşqun olub quyruqda gəzmə.

✦Ustaddan dərs al, qanmazdan mərifət.

✦Hər şeyə fərdi yanaşma, fərqli yanaş.

✦Bədbinlikdən keç səbrdə dayan ki, nikbin yaşamağı bacarasan.

✦Adamlardan gözləyəcəyin tək bir şey var, o da etibardır. İnsanlardan isə, nə desən gözlə, çünki, onlar etibarsızlardır.

✦Nəfs məcaz üçün olar, tamah üçün yox.

✦Bir evdə münasibət doğma deyilsə, doğmalar da yaddır.

✦İnsanlar etibarsızlığın, nəfsin və səbirsizliyin ucbatından məf olurlar.

✦Fikrin, oğrun nəfsin mənzili yoxdur.

✦Ağızda söz olma, dillərdə əzbər ol.

✦Etibarsız insan ya susuz dəyitrman.

✦Sağlam düşüncələr həmişə adamları xofluluqdan, pis nəfisdən müdafiə edir.

✦Nəfsi çox olana çoxluq azlıq edir, əqli kamil olanlara isə azlıq da toxluq edir. Etibar və səbr ən böyük və ən qiymətli dəyanətdir.

✦Cibində pulu olub, ac olan adam üşüməz.

✦Cahillərin törəməsi, kamillərin isə əsli var.

✦Arxası vicdana durma, ayaq altında qalarsan.

✦Kimi tanrını qəlbində gəzdirir, kimisi isə dilində.

✦Özlərindən razı olanlar, hamını özlərinə borclu sayarlar.

✦Sən hamıya gülə bilərsən, vay halına ki, həyat sənə gülsün.

**Teymur ƏHMƏDOV,**
**Tüntül kəndi.**


## «Qəbələ» qəzetinə

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## ELANLAR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Dizaxlı kənd sakini **Aslanov Əlvan Cəfər oğluna** verilmiş Seriya MA № 0287809, qeydiyyat tarixi 03.12.2011, qeydiyyat nömrəsi 1911006459 olan **Çıxarış** və Qəbələ Ərazi İdarəsi tərəfindən verilmiş Reyestr nömrəsi 406013009581, tərtib edilmə tarixi 02.12.2011, inventar nömrəsi 406-6/148 olan **Torpaq Sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfitndən 29 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla **Səddinov Füzuli Feruz oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-425 F nömrəli (kodu 40608038) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Emin Baratoğlu, Eldar Quliyev və Əlövsət Aləmmədov **Əhəd Kərimxanova,** bacısı

**ZENFİRA XANIM ƏSGƏR QIZININ**

vəfatı münasibəti ilə dərin hüznlə başsağlığı verirlər.

Aslan Cəlilov, Əhəd Kərimxanov, Eldar Quliyev, Rasim Yaqubov və Əlövsət Aləmmədov Emin Baratoğluna, bacısı

**NAHİDƏ XANIMIN**

vəfatı münasibətilə kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi: N. R. Atakişiyev.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Tiraj 1650.

Oxucu məktubları geri qaytarılmır.